**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# YENİ TƏHSİL KONSEPSİYASI KONTEKSTİNDƏ ŞAGİRD KOLLEKTİVİNDƏ EMOSİONAL MÜNASİBƏTLƏR

İxtisas: 6114.01 – Sosial psixologiya

Elm sahəsi: Psixologiya

İddiaçı: **Sevinc Qurban qızı Sarıyeva**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2021**

Dissertasiya işi AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun Sosiologiya şöbəsində yerinə yetirilmişdir.

Elmi rəhbər: psixologiya elmləri doktoru, dosent
**Elxan Bəylər oğlu Bəylərov**

Rəsmi opponentlər: psixologiya elmləri doktoru, professor
**Ramiz İbrahim oğlu Əliyev**

psixologiya üzrə fəlsəfə doktoru, dosent
**Elnarə Əhməd qızı Əhmədova**

psixologiya üzrə fəlsəfə doktoru, dosent
**Afərin Əli qızı Abbasova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Bakı Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.43 Dissertasiya şurası.

Dissertasiya şurasının sədri: psixologiya elmləri doktoru, professor
**Kamilə Ramiz qızı Əliyeva**

Dissertasiya şurasının elmi katibi: psixologiya üzrə fəlsəfə doktoru
**Müşviq Hüseyn oğlu Mustafayev**

Elmi seminarın sədri: psixologiya elmləri doktoru, professor
**Elnarə İbrahim qızı Şəfiyeva**

İmzanı təsdiq edirəm
BAKI DÖVLƏT UNİVERSİTETİNİN ELMİ KATİBİ
prof. V.M.SALMANOV
«10» 12 2021 il

# DİSSERTASİYANIN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Məktəbdə psixoloji mühitin sağlamlaşdırılması, müəllim-şagird, müəllim-müəllim, müəllim-valideyn, şagird-şagird emosional münasibətlərin tənzimlənməsi vacib psixoloji məsələlərdən biridir.Yeni təhsil konsepsiyası şagirdlərin təlim prosesinin fəal subyektinə çevrilməsini tələb etməklə, onların fəaliyyətinə yeni aspektdən yanaşır.

Müasir təhsil konsepsiyasında şagirdlər əsasən fəal tədqiqatçılar, bir-biri ilə daima ünsiyyətdə olan, birlikdə araşdıran, müzakirə edən, qərar qəbul edən, münasibət bildirən, dəyərləndirən rolunda çıxış edirlər. Bu baxımdan istər cütlərlə, istər qruplarda, istərsə də kollektiv şəkildə təlim fəaliyyəti ilə məşğul olduqda şagirdlər arasındakı münasibətlərin düzgün formalaşdırılması, bu münasibətlərin həssaslıqla idarə olunması çox mühüm əhəmiyyət kəsb edir. Bu amil müəllimlərdən son dərəcə yüksək psixoloji-pedaqoji hazırlıq tələb edir. Yeni biliklərin əldə edilməsi prosesi, məlumat çatışmazlığı, qərarların qəbulunda məsuliyyət hissi, vaxt azlığı, öz mövqeyini əsaslandırmaq, fikir, məlumat və münasibətlərə tənqidi yanaşmaq və s. halların yarada biləcəyi emosional gərginlik müəllimlər tərəfindən yüksək peşəkarlıqla yaradıcılıq məcrasına yönəldilməli, konfliktlərin, narazılıqların və inciklilərin qarşısı alınmalıdır. Belə bir mühitdə ən yaxşı profilaktik tədbir şagird kollektivində xeyirxahlıq zəminində milli-mənəvi, dini, əxlaqi dəyərlərə əsaslanan sağlam emosional münasibətlərin formalaşdırılmasıdır.

Fərqli sosial qruplarda müxtəlif zəmində baş verən sosial-psixoloji konfiliktlər, o cümlədən təlim prosesində fəal öyrənmə mühitində fərdi şəxsiyyət keyfiyyətləri, maraqların toqquşması, yeniyetmələrin özünütəsdiq problemləri, xasiyyətlərinin uyuşmaması və s. zəmində baş verən konfliktlər emosional münasibətlərin tədqiqinin aktuallığını bir daha təsdiq edir.

İntensivləşən həyat tərzi, insan fəaliyyətinin demək olar ki, bütün sahələrində formal, verbal ünsiyyətin çoxluğu, səmimi ünsiyyətin isə defisiti emosional münasibətləri əsrin aktual psixoloji problemlərindən birinə çevirmişdir.

Məlumdur ki, şagirdlər də belə halların ciddi təsirinə məruz qalırlar. Bu kontekstdə şagird kollektivlərində emosional münasibətlərin təlim prosesinə təsirinin elmi tədqiqi xüsusi əhəmiyyət kəsb edir. Şagirdlərin şəxsiyyət kimi formalaşması aspektində də emosional münasibətlərin tədqiqi aktual psixoloji problem kimi diqqəti cəlb edir.

Müasir təhsil sistemində onun münasibətlər müstəvilərində də ciddi dəyişikliklər baş vermişdir. Bu yeni mühitdə emosional münasibətlərin formalaşması, inkişafı və dinamikası, ona təsir edən başlıca amillər lazımınca tədqiq edilməmiş və psixoloji təhlildən keçirilməmişdir. Mövzunun aktuallığını şərtləndirən mühüm amillərdən biridə budur.

Emosional münasibətlər insan həyatının bütün sahələrində böyük əhəmiyyət kəsb edir. Bu sahəni araşdıran tədqiqatçılar emosional münasibətlərin inkişafı probleminə, onun bu və ya digər psixoloji xüsusiyyətlərinə, fərqli cəhətlərinə, daha çox isə onun ayrı-ayrı təzahürlərinə toxunmuşlar.

İnsanlar arasındakı emosional münasibətlər bütün dövrlərdə psixologiyanın aktual problemlərindən olmasına baxmayaraq son iki əsrdə tədqiqatçıların daha çox diqqətini cəlb etmişdir. Azərbaycan psixoloqları Ə.Əlizadə, Ə.Bayramov, B.Əliyev, Q.Əzimov, N.Cavadov, R.Cabbarov, L.Cabbarova öz əsərlərində emosional münasibətlərin müxtəlif aspektlərinə bu və ya digər dərəcədə toxunumuşdurlar. Prof.Ə.Əlizadə "Uşaq və yeniyetmələrin cinsi tərbiyəsi" monoqrafiyasında təlim mühitində şagirdlərin rəğbət, məhəbbət və dostluq münasibətlərini və bu münasibətlərə baxışlarını təhlil etmişdir. O, tədqiqatında müəyyən etmişdir ki, *müxtəlif yaş dövrlərində uşaqlar arasında şəxsi qarşılıqlı münasibətlər qurulur və zaman keçdikcə, yaş artdıqca müsbət emosional münasibətlər qarşılıqlı əlaqələrin əsas tipi kimi formalaşır və inkişaf edir.*[1]

XX əsrdən başlayaraq insanlar arasında ünsiyyətin emosional tərkibinin tədqiqi həm də praktiki əhəmiyyət kəsb etməyə başlamışdır. Rus psixoloqları L.Vıqotski, M.Y.Qaloşova, İ.S.Kon, S.Rubinşteyn, P.Simonova, Q.M.Andreyeva, İ.İ.Çesnakova,

[1] Əlizadə, Ə.Ə. Uşaq və yeniyetmələrin cinsi tərbiyəsi. Bakı: Maarif,1986, 234 s.

V.V.Stolin, L.Qozman və İ.Aleşina emosional münasibətlərə, onların psixoloji xüsusiyyətlərinə, təzahür formalarına toxunmuş, bu problemi müxtəlif aspektlərdə araşdırmışlar.

Tədqiqatçılardan V.Stolin və M.Qaloşova emosional münasibətləri üçölçülü münasibət kimi təhlil etmiş, bu problemin müxtəlif tərəflərini araşdırmışlar. L.Vıqotski, S.Rubinşteyn, P.Simonova emosional münasibətləri attraksiya ilə əlaqələndirmiş və ünsiyyət kontekstində öyrənmişlər. Bu müəlliflərə görə müsbət emosional münasibətlərin zəmini attraksiyadır. Q.M.Andreyeva attraksiyanı ünsiyyət sistemində tədqiq etmişdir. İ.S.Kon və İ.İ.Çesnakova münasibətin emosional komponentini davranışla əlaqələndirmişlər. Qarşılıqlı əlaqələrdə emosional münasibətlər problemini L.Qozman və İ.Aleşina da öz tədqiqatlarının obyektinə çevirmişlər. Qeyd etmək lazımdır ki, emosional münasibətlərə dair tədqiqatlarda sosial-psixoloji, xüsusən də milli zəmin fərqli olduğundan bu münasibətlərin formalaşmasına və inkişafına təsir göstərən amillər də müxtəlif aspektlərdən araşdırılmışdır. Bu səbəbdən digər ölkələrdə emosional münasibətlərə dair aparılmış araşdırmalardan əldə edilən nəticələr Azərbaycanın sosial-mədəni mühitinə, münasibətlər sisteminə birbaşa tətbiq və ya aid edilə bilməz.

Mövcud ədəbiyyatın icmalı bizim konkret nəzəri-eksperimental araşdırmamızın problemini anlamağa, onun obyekti, predmeti, məqsəd və vəzifələrini ifadə etməyə imkan verir.

**Tədqiqatın obyekti -** yeni təhsil konsepsiyası kontekstində şagird kollektivində təzahür edən emosional münasibətlərdir.

**Tədqiqatın predmeti -** müasir təhsil mühitində şagird kollektivində emosional münasibətlərin psixoloji xüsusiyyətləridir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi -müasir şagird kollektivlərində emosional münasibətlərin səciyyəvi psixoloji xüsusiyyətlərini tədqiq etmək, bu münasibətlərin inkişafına təsir edən amilləri müəyyənləşdirmək, onlara pozitiv təsir göstərməklə təlimin keyfiyyətinin yüksəldilməsinə nail olmaqdır.

Tədqiqatın problemi, məqsədi, obyekti və predmetinə müvafiq olaraq, onun aşağıdakı vəzifələri müəyyənləşdirilmişdir:

-şagird kollektivində emosional münasibətlərə dair müasir nəzəri yanaşmaların təhlili;

-şagird kollektivində emosional münasibətlərin psixoloji xüsusiyyətlərini tədqiq etmək üçün elmi-metodiki bazanın işlənilməsi;

-emosional münasibətləri səciyyələndirən əsas amillərin müəyyən edilməsi;

-şagirdlərin təlim uğurlarına təsir edən şagird-şagird, müəllim-şagird münasibətlərində emosional sahənin psixoloji xüsusiyyətlərinin araşdırılması;

-təlim fəaliyyəti ilə bağlı şagirdlərin əsas emosional hisslərinin müəyyən edilməsi və təhlili.

**Tədqiqatın metodları.** Tədqiqatın metodoloji əsasını idrak nəzəriyyəsi, şəxsiyyət, hislər və münasibətlər psixologiyasının əsas paradiqmaları təşkil edir. Tədqiqatda V.N.Myasişevin münasibət nəzəriyyəsinə istinad edilmişdir.

Tədqiqat prosesində aşağıdakı metodlardan istifadə edilmişdir: müşahidə, müsahibə, test, anket sorğuları, eksperiment və riyazi-statistik metodlar. Tədqiqat nəticələrinin emalında SPSS proqramından istifadə edilmişdir.

**Tədqiqatın əsas fərziyyəsi - t**əlimin keyfiyyətinin yüksəlməsi şagird kollektivində pozitiv emosional münasibətlərin yaradılmasından, təlim prosesində bu münasibətlərin fəallaşdırılaraq düzgün yönləndirilməsindən əhəmiyyətli dərəcədə asılıdır.

**Köməkçi fərziyyə** kimi yeniyetmə şagirdlərin məktəbə və təlimə münasibəti onların sinif yoldaşları ilə olan emosional münasibətlərdən əhəmiyyətli dərəcədə asılıdır.

**Müdafiəyə çıxarılan əsas müddəalar.**

1.Şagird kollektivində pozitiv emosional münasibətlər onların məktəbə və təlim prosesinə münasibətlərini yaxşılaşdırır.

2.Müsbət emosional münasibətlər şagirdlərin təlim motivasiyasını, nailiyyətlərini yüksəldir, onları təlimdə əməkdaşlığa, qarşılıqlı yardımlaşmaya sövq edir.

3.Yeni təhsil konsepsiyasında istifadə olunan fəal təlim metodları şagird kollektivində emosional münasibətlərə müsbət təsir edir.

**Tədqiqatın elmi yeniliyi.** Azərbaycanda sosial psoxologiya sahəsində Yeni təhsil konsepsiyası kontekstində şagird kollektivində emosional münasibətlərin psixoloji xüsusiyyətləri ilk dəfə ayrıca bir elmi tədqiqatın obyekti kimi tədqiq olunmuşdur. İlk dəfə olaraq bu işdə:

-yeni təhsil münasibətləri zəminində emosional münasibətlərin formalaşmasına və inkişafına zahiri görünüşün, fiziki cazibədarlığın, xarakterin, dünyagörüşünün, dəyərlər sisteminin, intellektual və ünsiyyət bacarıqlarının əhəmiyyətli təsiri müəyyən edilmişdir.

-interaktiv təlim mühitində şagirdlərin təlim uğurlarının yüksəlməsində şagird kollektivindəki harmonik emosional münasibətlərin əhəmiyyəti nəzəri olaraq əsaslandırılmış və eksperimental qaydada təsdiq edilmişdir.

**Tədqiqatın elmi-nəzəri və praktik əhəmiyyəti.** Tədqiqatda birgə fəaliyyət prosesində emosional münasibətlərin psixoloji strukturuna, səciyyəvi xüsusiyyətlərinə, təzahür formalarına, tənzimlənmə yollarına, təsir imkanlarına dair yeni məlumatlar əldə olunmuşdur. Təlim prosesində məktəblilər arasında emosional münasibətlərin inkişaf xüsusiyyətləri öyrənilmiş, səmərəli fəaliyyətin təmin edilməsi istiqamətində bu münasibətlərin inkişaf etdirilməsi və tənzimlənməsinə dair bilgilər əldə edilmişdir. Tədqiqat nəticələrindən müxtəlif fəaliyyət sahələrində qarşılıqlı əlaqədə olan insanların emosional münasibətlərinin fəaliyyət prosesindəki roluna dair aparılan tədqiqatlarda istifadə edilə bilər.

Tədqiqatdan alınan nəticələrindən təlim prosesinin daha səmərəli təşkili, şagird kollektivinda sağlam mənəvi, psixoloji mühitin yaradılması işində istifadə etmək olar. Şagirdlərin kamil şəxsiyyət kimi formalaşmaları üçün kollektivdə müsbət emosional münasibətlərin formalaşdırılması və inkişafı işində istifadə tədqiqat nəticələrindən, sonda verilmiş təklif və tövsiyələrdən faydalanmaq olar. Tədqiqatın nəticələrindən şagirdlər, valideynlər, müəllimlər, praktik psixoloqlar, təhsil müəssisələrini idarəedən şəxslər, ali məktəblərin psixologiya və pedaqogika fakültələrinin tələbələri, tədqiqatçılar istifadə edə bilərlər. Müəllimlər emosional münasibətləri düzgün tənzimləməklə təlimin keyfiyyətini yüksəldə bilər, şagirdlərin kamil şəxsiyyət kimi formalaşmalarına zəmin

yaradar, sinifdə şəxsiyyətlərarası qarşılıqlı münasibətlərin yüksək səviyyədə qurulmasını təmin etmiş olarlar.

**Aprobasiyası və tətbiqi.** Tədqiqatın nəticələrinin aprobasiyası məqalə və tezislərin çapı, regional və beynəlxalq elmi-praktik konfranslarda iştirakla həyata keçirilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə və Sosiologiya İnstitutunun Sosiologiya şöbəsi.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya giriş, 3 fəsil, (yeddi yarımfəsil), nəticə, istifadə edilmiş ədəbiyyat siyahısı və əlavələrdən (218075 işarədən) ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

**Girişdə** tədqiqatın mövzsunun aktuallığı açıqlanır, onun işlənmə dərəcəsi, obyekti, predmeti, məqsəd və vəzifələri, fərziyyəsi, elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti, müdafiəyə təqdim olunan müddəalar, işin aprobasiyası və strukturu nəzərdən keçirilir.

Dissertasiyanın **"Emosional münasibətlər sosial psixologiyanın nəzəri-tarixi problemi kimi"** adlanan I fəsli 3 yarımfəsildən ibarətdir.

**"Emosional münasibətlərin metodoloji əsasları"** adlanan birinci yarımfəsildə müxtəlif tədqiqatçılara istinad edərək mövzu ilə bağlı anlayışların sosial-psixoloji mahiyyəti, eləcədə problemin tədqiqi istiqaməti ətraflı şərh edilmişdir İnsan onu əhatə edən insanlarla fərdi, şüurlu, seçici münasibətdə olur. Bu vacib məsələ olduğundan biz tədqiqatın metodoloji əsası kimi məhz V.Myasişevin münasibət nəzəriyyəsinə istinad etmişik. V.N.Myasişevin fikrincə, *münasibət şəxsiyyətin obyektiv gerçəkliyin müxtəlif tərəflərilə fərdi, seçici, şüurlu əlaqəsinin bütöv, tam bir sistemidir. Bu sistem insanın bütün inkişaf tarixindən irəli gəlir və insanın şəxsi təcrübəsini ifadə edərək onun hərəkətlərini və həyacanını daxilən təyin edir. Ümumiyyətlə, insan ətraf mühit və onun tərkib hissələri ilə qarşılıqlı münasibətdə obyektiv gerçəkliyi subyektiv şəkildə şüurlu surətdə dərk edir və öz məqsəd və tələbatlarına uyğun şəkildə yenə də şüurlu olaraq onu dəyişdirir və ya bu istiqamətdə məqsədyönlü şəkildə cəhdlər edir.Nəticədə insan*

*münasibətdə obyektiv gerçıkliyin müxtəlif tərəfləri ilə seçici, şüurlu, fərdi psixoloji əlaqəni təcrübə əsasında təqdim edir, onu fəaliyyətdə, hərəkətdə, reaksiyada, həyacanda ifadə edir. Şüurlu şəkildə seçilmiş əlaqələr sistemi kimi ayrı-ayrı insanların münasibətləri fərdi inkişafın məhsuludur".*[2] Fikrimizcə, münasibətlər sisteminin zənginliyi şəxsiyyətin həyati təcrübəsindən, bu təcrübənin psixoloji çalarlarından, şəxsin fərdi və psixoloji xüsusiyyyətlərindən birbaşa asılıdır. İnsan şüurlu surətdə ətraf aləmə münasibətini müəyyən edir, şüur şəxsiyyət üçün biliklərin əldə edilməsilə yanaşı münasibətin qurulmasında böyük əhəmiyyət kəsb edir.

Rus psixoloqu A.F.Lazurski münasibət anlayışını şəxsiyyətin xarakteri ilə əlaqədar olaraq öyrənmişdir. Onun fikrincə, "*şəxsiyyət yalnız psixoloji deyil, həm də psixososial cəhətdən təhlil edilməlidir".*[3] Deməli, şəxsiyyətin əsası həm bioloji, həm də sosial cəhətdən müəyyən olunur.

**"Emosional münasibətlər probleminin sosial-psixoloji ədəbiyyatda qoyuluşu"** adlanan ikinci yarımfəsil psixoloji ədəbiyyatın araşdırılmasına həsr edilmişdir Mövzu ilə əlaqədar müxtəlif müəlliflərin (A.F.Lazurski, V.N.Myasişev, L.İ.Bojoviç, K.İzard, L.Y.Qozman, Ə.Əlizadə) nəzəri eksperimental tədqiqatlarında emosional münasibətlər problemi hərtərəfli araşdırılmış, maraqlı faktlar açılmış, ümumiləşdirmələr aparılmışdır.

Son zamanlar eksperimental metodikalarla aparılmış ən yeni tədqiqat (V.Stolin, N.Qaloşova) göstərir ki, insanların bir-birinə emosional münasibətləri təkcə "simpatiya-antipatiya" ilə məhdudlaşmır.Həmin münasibətlər üçölçülü struktura malikdir. Emosional münasibətlərin üçölçülü strukturu universal xarakter daşıyır və şəxsiyyətlərarası münasibətlərin bütün tiplərini onların əsasında təhlil etmək zəruridir. İnsanlar simpatiya–antipatiya, hörmət–hörmətsizlik, yaxınlıq – uzaqlıq dixatomiyası kökündə öz münasibətlərini emosional surətdə dərk edirlər. Qeyd etmək lazımdır ki, insanların biri-birinə emosional münasibətləri bu parametrlərlə daha çox xarakterizə edilir.

---

[2] Мясищев, В. Н. Психология отношений. Воронеж: МОДЭК, 2011, 398 с

[3] Лазурский, А.Ф. Очерк науки о характерах. М.: Наука, 1995, 271 с

Beləliklə, münasibət emosional sistem kimi müəyyən obyektə istiqamətlənir. İnsanın xarici aləmlə istənilən əlaqəsini simpatiya, dostluq, məhəbbət, meyl, nifrət, antipatiya və s. kimi emosional rənglərlə bəzəyir.

**"Emosional münasibət ünsiyyət kontekstində"** adlanan üçüncü yarımfəsildə emosional münasibətlər ünsiyyət kontekstində təhlil edilmişdir. Qarşılıqlı münasibətlər nəinki ünsiyyət prosesində əks olunur, həm də məhz bu prosesdə formalaşır. Məlumdur ki, insanlar müxtəlif qruplara daxil olaraq bir-birilə ünsiyyətdə olurlar. Onlar arasında emosional münasibətlər yaranır. Ünsiyyətin gedişatından asılı olaraq qrupda müsbət və ya mənfi emosional münasibətlər formalaşır. Rus psixoloqu A.A.Bodolyevin fikrincə, "*faktların çoxu göstərir ki, münasibət ünsiyyətdə yaranır və formalaşır"*.[4] Rus psixoloqu L.Qozman müəyyən etmişdir ki, "*emosional münasibətlərin başlanğıc mərhələsi simpatiyanın əmələ gəlməsi və inkişafi ilə əlaqədardır"*.[5] Təhlillər zamanı müəyyən edilmişdir ki, qarşılıqlı ünsiyyətdə təzahür edən münasibətlərdə ifadə olunan emosional münasibətlər insanların fərdi-subyektiv əlaqələrində öz əksini tapır. Fərdi-subyektiv əlaqələr özünü daha çox dostluq münasibətlərində, sevgidə, simpatiyada və s. də biruzə verir.

Müəyyən edilmişdir ki, şagirdlər birgə fəaliyyətdə könüllü yardımı, müsbət emosional əlaqəni hiss etdikdə, bu münasibətlər yoldaşlıq, dostluq münasibətlərinə keçə bilir. Belə münasibətlərdə şagirdlər təlim fəaliyyətində və təlimdən kanar ünsiyyətdə biri-birilərinə lazım olduqlarını hiss edir və bu münasibətlərə xüsusi dəyər verirlər.

Dissertasiyanın **"Yeni təhsil konsepsiyasının sosial-psixoloji aspekktləri"** adlanan II fəsil 2 yarımfəsildən ibarətdir.

**"Müasir təlim texnologiyalarının sosial, psixoloji-pedaqoji xüsusiyyətləri"** adlanan yarımfəsildə yeni təlim texnologiyalarının sosial, psixoloj və pedaqoji xüsusiyyətləri təhlil edilmişdir. Müasir cəmiyyətdə baş verən sosial dəyişikliklər təhsil sistemində islahatları şərtləndirmişdir. 15 iyun 1999-cu il tarixində "Azərbaycan

---

[4] Бодалев, А.А. Личность и общение. М.: Педагогика, 2011, 272 с.
[5] Гозман, Л.Я. Психология эмоциональных отношений. М.: МГУ, 1987, с.177

Respublikasının təhsil sahəsində İslahat Proqramı” təsdiq olunmuşdur. Təhsil sahəsində İslahat Proqramı 1999-2013-cü illəri əhatə edirdi. I mərhələ 1999-2003-cü il öyrədici-innovativ, II mərhələ 2004-2007-ci il hazırlıq, III mərhələ 2008-2013-cü il tətbiqetmə.Təhsil islahatının davamı olaraq Azərbaycan Respublikası Nazirlər Kabinetinin 30 oktyabr 2006-cı il tarixli, 233 nömrəli qərarı ilə “Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurikulum)” təsdiq edilmişdir. Cəmiyyətdə yeni ictimai münasibətlərin yaranması, planlı iqtisadiyyatdan bazar iqtusadiyyatına keçid, dünya təhsil sisteminə inteqrasiya, informasiya əsrinin tələbləri, mövcud ümumi təhsil proqramlarının müasir tələblərə Yeni Təhsil Konsepsiyasını aktuallaşdıran səbəblərdir. Müasir təhsil konsepsiyası aspektində tətbiq edilən yeni təlim texnologiyaları bir sıra xüsusiyyətləri ilə ənənəvi təlim metodlarından əhəmiyyətli şəkildə fərqlənirlər: şagirdlərin fəal şəkildə tədqiqat fəaliyyətinə cəlb edilmələri, təlim prosesində müəllim tərəfindən problemli şəraitin yaradılması, biliklərin şagirdlər tərəfindən müstəqil əldə edilməsi və s. Fəal təlimdə müəllim və şagird eyni səviyyədədirlər. Müasir dövrdə dərs əməkdaşlıq, işgüzarlıq, demokratik prinsiplərlə qurulur. Fəal təlimdə müəllim şagirdə öyrətdiyi kimi, özü də şagirddən öyrənir. Fəal təlimdə qarşılıqlı dialoq, əməkdaşlıq hökm sürür. Hazırda şagirdlər bir-birilə əməkdaşlıq edərək, birlikdə araşdırır, birlikdə tətbiq edir, birgə işləyirlər, Bu zaman olar mütləq ünsiyyətə girirlər, ünsiyyət prosesində bir-birinə emosional münasibət göstərirlər. Bu emosional münasibət təhsilin keyfiyyətinə, alınan nəticəyə təsir göstərir. Əvvəllər müəllim şagirdlə işləyirdisə, indi şagird şagirdlə işləyir. Şagird qrupla, kollektivlə, cütlüklə təmasdadır. Yeni təlim mühitində müəllim-şagird və şagird-şagird münasibətlərində pozitiv emosianal mühitin mövcudluğu həm təlimin keyfiyyətinin yüksəldilməsinə, həm də şagirdlərin təlim maraqlarının aktuallaşmasına əlverişli zəmin yaradır.

**“Yeni təhsil konsepsiyası aspektində şagird kollektivində emosional münasibətlərin psixoloji xüsusiyyətləri”** adlanan ikinci yarımfəsildə şagird kollektivində emosional münasibətlərin xüsusiyyətləri araşdırılmışdır. Emosional münasibətlər şagirdlərin

həyatında, təlim fəaliyyətində böyük və çoxcəhətli əhəmiyyətə malikdir. Müasir təhsil konsepsiyası baxımından və fəal təlim metodlarının geniş istifadəsi zəminində bu münasibətlərin aktuallığı bir qədər də artmış olur. Kiçik yaşlı yeniyetmələr arasında emosional münasibətlərin inkişafında şagird kollektivindəki psixoloji iqlimin əhəmiyyəti böyükdür. Ənənəvi təlimdəki öyrədən subyekt - öyrənən obyekt münasibətləri indi təlim prosesində əməkdaşlıq zəminində formalaşan subyek-subyekt münasibətləri ilə əvəz edilməkdədir. Bu səbəbdən yeniyetmələrin təlimə müsbət emosional münasibətinə müəllim-şagird və şagird-şagird münasibətləri həlledici təsir göstərir. İnsan – insan münasibətində müəllim-şagird münasibətini önə çəkən prof. Ə.Əlizadəyə görə *"şagirdin şəxsiyyət kimi düzgün inkişafına subyekt-subyekt münasibətləri şərait yaratmalıdır".*[6] Müəllim-şagird və şagird-şagird münasibətləri zəminində qarşılıqlı əməkdaşlıqda şagirdlər qarşılıqlı təsirin fəal subyektləridirlər. Eyni zamanda şagirdlərin fəal öyrənən mövqeyində olmaları fəal təlim üsullarının tətbiqini zəruriləşdirir. Bu hal isə yalnız fəal dialoji ünsiyyət vasitəsilə mümkün olduğundan təlim mühitindəki emosional münasibətlər və onların formalaşmasının psixoloji xüsusiyyətləri mühüm əhəmiyyət kəsb edir.

Kiçik yaşlı yeniyetmələr arasında qarşılıqlı hörmət, simpatiya, xeyirxahlıq, empatiya, meyl etmək və s. kimi keyfiyyətlər onların emosional münasibətlərinin səciyyəvi cəhətləri kimi çıxış edir, onların kollektiv, qrup və cütlərlə iş kimi təlim fəaliyyətlərində mühüm əhəmiyyət kəsb edir. Bu amillər kiçik yaşlı yeniyetmələrin həmyaşıdlarına emosional münasibətlərində şəxsi və sosial mənaya malik olan münasibətlərini ifadə edir. Kiçik yaşlı məktəblilər məktəb mühitində müəllimdən etibarlılıq, inam, güvən, xeyirxahlıq, dəstək hislərini duyarlarsa, təlim prosesinə daha arxayın və güvənli qoşular, potensiallarını gerçəkləşdirər və imkanları çərçivəsində harmonik inkişaf edərlər.

Beləliklə, kiçik yaşlı yeniyetmələrin təlimə müsbət emosional münasibətinə müəllim-şagird və şagird-şagird münasibətləri həlledici

---

[6] Əlizadə, Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı: 2004, 431 s.

təsir göstərir. Fəal təlim mühitində təkcə şagirdin bilik prosesinin aktivləşməsinə imkan yaranmır, həm də müasir həyatda onun ünsiyyət və emosional münasibətinin inkişafına şərait yaranır.

**“Şagird kollektivində emosional münasibətlərin rolunun eksperimental tədqiqi”** adlanan III fəsil 2 yarımfəsildən ibarətdir.

**“Eksperimentin təşkili və keçirilməsi”** adlanan birinci yarımfəsildə eksperimentin təşkili və keçirilməsi şərh edilmişdir. Eksperimentdə müşahidə, müsahibə, test, anket sorğu, eksperiment və riyazi-statistik metodları tətbiq edilmişir. Şagirdlərin tədris edilən fənlərə emosional münasibətlərini müəyyənləşdirən anket-sorğusundan, müəllimə, fənnə emosional münasibətin ifadə edilməsində isveçrə psixoloqu M.Lüşerin rənglər testindən, dostluq münasibətinə aid anketdən, qrupda kiçik yaşlı yeniyetmələr arasında emosional münasibətləri müəyyən etmək məqsədilə C.Marenonun sosiometriya metodundan istifadə edilmişdir.

**“Eksperiment nəticələrinin elmi-statstik təhlili”** adlana ikinci yarımfəsildə ekperimentin nəticələrinin elmi-statistik təhlili şərh edilmişdir. Eksperimental tədqiqatların ilk mərhələsində şagirdlərin emosional münasibətlərinin təhsilin keyfiyyətinə təsirini müəyyən etmək vəzifəsi qarşıya qoyulmuşdur. Bunun üçün 2015-2016-cı illəri əhatə edən tədris ili ərzində Bakının 244 saylı məktəbin 6-cı sinif, 115 saylı məktəbin 7-ci sinif şagirdləri və müəllim heyəti tədqiqata cəlb edilmişdir. Qeyd edək ki, 6 və 7-ci siniflərdən ibarət olan 151 şagird arasında test, anket sorğuları aparılmışdır. Aparılan müşahidlər nəticəsində müasir təhsil metodlarının şagird kollektivində müsbət emosional münasinbətlərin yaranmasına səbəb olduğu müəyyənləşdirilmişdir. Eksperimenti aparmaq üçün 244 saylı orta məktəbin $VI^b$ sinfini və 115 saylı orta məktəbin $VII^a$ sinfini nəzarət qrupu, 244 saylı orta məktəbin $VI^c$, $VI^a$ sinifləri və 115 saylı orta məktəbin $VII^b$, $VII^c$ sinifləri isə eksperimantal qruplar kimi götürülmüşdür. Müəyyənləşdirici eksperimentdə məqsəd nəzarət və eksperimental qruplarında şagirdlərin emosional və şəxsiyyətlərarası münasibətlərini müəyyənləşdirmək, onların keyfiyyət tərkibini aydınlaşdırmaq olmuşdur. Bu məqsədlə dostluq münasibətinə aid anketdən, müəllimə münasibətə aid sorğudan, rənglərlə müəllimə, fənnə münasibəti təyin edən psixodiaqnostik testdən, sinifdə

(qrupda) emosional münasibətlərin qiymətləndirilməsi sorğusundan istifadə olunmuşdur, Adı çəkilən bütün siniflərdə I yarımilliyin sonunda şagirdlərin fənlərə olan münasibətini müəyyənləşdirmək məqsədi ilə “tədris fənlərinə münasibətin müəyyənləşdirilməsi metodikası” (anket-sorğu) tətbiq olunmuşdur. Şagirdlərin riyaziyyat fənni üzrə I və II yarımilliyin qiymətləri nəzərə alınmışdır. Sonra isə eksperimental qruplarda müəllim Riyaziyyat fənnində “Beyin həmləsi” “Ziqzaq”, “Rollu oyunlar” adlı müasir təlim metodlarından istifadə etmişdir. II yarımilliyin sonunda yenidən anket sorğusu aparılıb birincisi ilə müqayisə edilmişdir.

İlk əvvəl nəzarət qruplarının nəticələrini nəzərdən keçirək. 2015-2016-cı tədris ilində 244 saylı məktəbin VI[b] sinfində aparılan eksperiment nəticəsində şagirdlərin sevdikləri fənlər içərisində Azərbaycan dili üstünlük təşkil edir. Belə ki, I yarımildə sinifdə 24 şagirddən 17-si, II yarımildə isə 25 şagirddən 14-ü bu fənni favori hesab edir. Sonrakı pillələrdə I yarımildə riyaziyyat-16, ədəbiyyat-11, tarix-7 fənləri durur. Eyni sinif üzrə II yarımildə ikinci favori fənn coğrafiya-13, riyaziyyat-9 hesab edilir. 2015-2016-cı tədris ilində 115 saylı məktəbin VII[a] sinfində aparılan eksperiment nəticəsində şagirdlərin sevdikləri fənlər içərisində Azərbaycan dili üstünlük təşkil edir. Belə ki, sinifdə I yarımildə 25 şagirddən 14-ü Azərbaycan dili və Riyaziyyat, II yarımildə isə 25 şagirddən 11-i Azərbaycan dili fənni favori hesab edir. Sonrakı pillələrdə I yarımildə üzrə fizika-6 idman-5 fənləri durur. Eyni sinif üzrə II yarımildə ikinci favori fənn riyaziyyat-8, idman-7, fizika-6 hesab edilir.

Hər bir sinif üzrə tədrisə yeni fənlər daxil olduqca şagirdlərin maraq faizində dəyişikliklər olur. Bu eyni zamanda tədris edilən fundamental elmlərin yuxarı siniflərdə çətinlik dərəcəsinin artması ilə əlaqədardır. Fikrimizcə, şagirdlərin maraq və meyl göstəricilərində bu siniflərdə stabillik gözlənilmir. Çünki başlanan bəzi yeni fənn bir müddətdən sonra cəlb ediciliyini itirir. İlkin anlayışlar ilk fəsillər daha asan mənimsənildiyindən yeni fənn şagirdlərin sevimli fənninə çevrilir. Bəzən şagird müəllimi onun tədris etdiyi fəndən daha çox istəyir. Dərsdə sağlam mühit, şəxsiyyətlərarası və emosional münasibətlərin düzgün formalaşması bu işdə öz üstünlüyünü göstərir.

Tədqiqat zamanı şagirdlərin sevmədiyi fənlərin siyahısı

araşdırılıb. İstər məktəbəqədər, istərsə də ibtidai sinif şagird qrupuna aid uşaqların rəsm çəkməkləri sevimli fəaliyyətlərdən biri hesab olunur. Uşaq bütün hissini, sevinc və həyacanını, düşüncəsini bütün rəng palitrasında ağ vərəqlərə köçürür. Rənglər onun emosional durumunun, emosional münasibətlərinin xəbərçisidir. Lakin VI sinif də araşdırma zamanı sevilməyən fənlər içərisində rəsm fənninin olması bir qədər təəccüb doğurur. Bu sırada musiqi və texnologiya fənləri ilk sıradadır. Eyni sinifdə bir il sonra aparılan sorğuda bu fənlər yenədə ön sıra, ilk beşlikdədir. Ibtidai sinifdə bütün fənlərin bir müəllim tərəfindən tədris edilir. Xüsusi qabiliyyət tələb edən fənlər mütəxəssis tərəfindən keçilmədikdə şagirdlərdə ibtidai də olsa bu cür bacarıq və vərdişlər formalaşmır. Nəzərə almaq lazımdır ki, düzgün formalaşmış musiqi zövqü, praktik həyatda ən bəsit halda düzgün seçilmiş rəng tandemi bu fənlərin formalaşdırdığı bacarıqların sayəsindədir. Müəllimin yaradıcı fəaliyyəti, əlverişli yaradıcı mühit, düzgün formalaşmış müəllim–şagird münasibətləri istənilən fənnin sevilməyinin əsas şərtlərindəndir. Tədqiqat zamanı Texnologiya fənni də sevilməyən fənn siyahısındadır. Həyatın istənilən sahəsində insan üçün praktik əmək bacarığının olması vacibdir. Əmək bacarıqları istər ailə-məişət, istərsədə digər praktik sahələrdə insanın özünütəsdiq vasitələrindən biri hesab olunur.Qızlar üçün sadə mətbəxt sirləri, tikiş işləri, evdarlıqla bağlı ən sadə bacarıqlar, oğlanlar üçün müxtəlif alətlərdən düzgün istifadə, evdə müəyyən əşyaların düzəldilməsi, ən sadə təhlükəsizlik qaydalarını bilmək və onlara əməl etmək praktik həyatın ilkin addımlarıdır. Digər tərəfdən texnologiya fənninin oğlanlara qadın müəllimə tərəfindən tədris edilməsi nəzərə çarpan məqamdır. Texnologiya fənnində işlədilən materialları, alətləri nəzərə alsaq oğlanların bu fənnə maraq göstərməmə səbəbi bəlli olur. Fikrimizcə dərsin xarakterindən, şagirddə formalaşdırdığı bacarıq və vərdişlərdən asılı olaraq fənni tədris edən müəllim faktorundan çox şey asılıdır.

Xüsusi qabiliyyət tələb edən dərslərin ikinci dərəcəli hesab olunması, onların əvəzinə digər dərslərin keçilməsi, ən pis halda uşaqların boş oturması yetişməkdə olan şəxsiyyətin hərtərəfli inkişafına mənfi təsir göstərir. Yaradıcı fəaliyyət tələb edən şagird təxəyyülü, onun inkişafı və gerçəkləşdirilməsinin ilkin toxumları bu

fənlərin tədrisindən, müəllimin şagirdlərlə yaratdığı şəxsiyyətlərarası, emosional münasibətlərdən, sağlam psixi və emosional mühitdən bilavasitə asılıdır.

Tədqiqat zamanı maraq kəsb edən faktlardan biri budur ki, VI sinifdə sevilməyən fənlərin seçilməsinə səbəb kimi müəllimin əsəbi, darıxdırıcı, uşaqlara qışqırması, kobudluğu səbəb göstərilir. Dərsin maraqsız keçməyi, rəsmi çəkə bilməməyi, müəllimin şəkili bəyənməməsi, aşağı qiymət yazması bu seçimi bir qədərdə yüksəldir. 2016-cı ildə eyni müəllim və eyni sinif mühitində bu fənlərin faiz nisbətini azaldır. Yəni şagirdlər artıq rəsm fənnini heç də sevilməyən fənn adlandırmırlar. Əksinə bir çoxları üçün bu fənn onların maraq dairəsindədir. Fikrimizcə bu dəyişikliyə səbəb yaş faktorunda psixi proseslərin dəyişilməsidir.

Müəllim-şagird münasibətlərinin araşdırılması ilə bağlı aparılan "tədris fənlərinə münasibətlərin müəyyənləşdirilməsi" metodikasının (anket-sorğu) cavablarına görə şagirdlərin müəllimə münasibəti ilə fənnə müansibəti arasında asılılığın olub olmamasını müəyyənləşdirmək məqsədi ilə korrelyasiya analizi aparılmışdır. Nəticələr cədvəl 1.- də verilmişdir.

**Şagirdlərin müəllimə, fənnə münasibətinin korrelyasiya göstəriciləri**

**Cədvəl 1.**

| | N | Şagirdin fənnə münasibəti ilə korrelyasiyası | Əhəmiyyətlilik |
|---|---|---|---|
| Şagirdin müəllimə münasibəti | 151 | ,841** | ,000 |

Cədvəl 1.-dən göründüyü kimi şagirdin müəllimə münasibəti ilə fənnə olan münasibəti arasında pozitiv istiqamətdə əhəmiyyətli səviyyədə ($p< 0,01$) korrelyasiya asılılığı vardır. Yəni şagirdlərin fənnə münasibəti bir başa müəllimdən asılıdır. Belə ki, müəllimin şəxsi keyfiyyətləri və dərs keçmə üsulları şagirdin fənnə olan müsbət və ya mənfi münasibətini formalaşdırır.

Emosional münasibətləri tətqiq etmək üçün istifadə olunan metodikalardan biri də Lüşer testidir. Seçilən rənglər hər bir dərsdə

müəllimin dərsə, şagirdlərə, onlar arasındakı münasibətə mövqeyini göstərir. Hər bir fənnin spesifik xüsusiyyətindən asılı olaraq rəng seçimi də dəyişir. Qeyd edək ki, Lüşer testində qız və oğlanlar seçimdə eyni rənglərə üstünlük versələrdə, seçim faizində eynilik gözlənilmir. Məsələn, coğrafiya fənni üzrə qızlarda yaşıl, göy və bənövşəyi ilə eyni faiz göstəricisinə malik olsada, oğlanlarda yaşıl rəng nəzərə çarpan dərəcədə yüksəkdir. Bu həm də oğlan və qız psixologiyasındakı emosional həssaslıq, emosional yaşantılar, emosional sfera ilə bağlı hislər, eləcədə ünsiyyət problemlərindəki fərqlərlə əlaqədardır. VI sinifində oğlanların sevmədikləri fənlərə münasibətini Lüşer testi vasitəsilə araşdırarkən ən çox seçilən rəngin qara olduğu müəyyənləşib. Sevmədiyi fənni qara rənglə oğlanların 50%-i seçib. Bu rəng musiqi və texnologiya fənlərində daha qabarıq şəkildə özünü göstərir. Seçimə görə qara rəng xoşa gəlməyən qismində seçilibsə, şəxs kənardan sakit və özünəinamlı görünsədə, aqressiyanı daxilinə ataraq özünü üzür. Və bu onun şəxsiyyətlərarası münasibətlərində, emosional sferasında, davranışında, ünsiyyətində biruzə verir. Nəticədə müəllimə kobudluq, eləcədə bu müəllimin tədris etdiyi fənnə qarşı aqressiya, hirs kimi mənfi hallar dərsin keyfiyyətini aşağı salır. Musiqi dərsindən fərqli olaraq rəsm dərsində oğlanların bir qismi ikinci rəng kimi boz rəngi seçib. Sevmədiyi fənni boz rənglə seçən şəxs, proaktivdir. Prinsiplərinə uyğun hərəkət edir. Konkret məqsədi olur. Sabaha inanır. Şagirdlərin bir qismi müəllim dərsi maraqsız keçməsinə, çəkilən rəsmə görə aşağı qiymət verməsinə baxmayaraq bu fənlə sinifdən xaric məşğul olurlar. Fənni tədris edən müəllimin aqressiv davranışları, düzgün qurmadığı şəxsiyyətlərarası münasibətlər nəticəsində fənni qəbul edə bilmirlər. Sinif mühitində rəsmlə maraqlanmasalarda, sinifdən xaric mühitdə rəsmlə bağlı konkret məqsədləri olur. Özləri üçün rəsm çəkməyi sevirlər.

IBM SPSS (Statiscal Package for the Social Science) versiya 25 paket proqramından istifadə edərək şagirdlərlə keçirilən anket sorğu ilə Lüşer testinin nəticələri arasında əlaqəyə baxılmışdır. Dəyişənlərin normal paylanma və homogen olub-olmadığı yoxlanıldı. Asılı dəyişənlərin normal paylanmsını müəyyən etmək üçün Kolmoqorov-Smirnov testindən, homogenliyi isə Levens testindən istifadə olunmuşdur. Asılı olmayan dəyişənlərin normal

paylandığı və homogenliyi olmadığından Kruskal-Vallis H testindən istifadə edilmişdir. Nəticələr cədvəl 2.- də verilmişdir

**Lüşer testinə görə şagirdlərin müəllimə müsbət münasibətilə anket sorğu arasında statistik göstəriciləri**

**Cədvəl 2.**

| | Lüşer test | N | Mean Rank | df | $X^2$ | P |
|---|---|---|---|---|---|---|
| Şagirdlərin müəllimə müsbət münasibəti | Qırmızı | 26 | 75.48 | 4 | 25.516 | .000 |
| | Sarı | 23 | 69.93 | | | |
| | Göy | 15 | 109.50 | | | |
| | Yaşıl | 56 | 58.95 | | | |
| | Bənövşəyi | 31 | 95.53 | | | |
| | Cəmi | 151 | | | | |

Cədvəl 2.-dən göründüyü kimi Lüşer testinə görə şagirdlərin müəllimə müsbət münasibətilə anket sorğu arasında statistik əhəmiyyətli əlaqə vardır ($X^2$=25.516, p<0,05).

Lüşer testinə görə şagirdlərin müəllimə mənfi münasibətinin nəticələrilə anket sorğu arasındakı statistik əlaqə cədvəl 3.-də göstərilmişdir.

**Lüşer testinə görə şagirdlərin müəllimə mənfi münasibətilə anket sorğu arasında statistik göstəriciləri**

**Cədvəl 3.**

| | Lüşer test | N | Mean Rank | df | $X^2$ | P |
|---|---|---|---|---|---|---|
| Şagirdlərin müəllimə mənfi münasibəti | Qırmızı | 51 | 73.85 | 6 | 74.010 | .000 |
| | Sarı | 9 | 60.17 | | | |
| | Göy | 17 | 129.82 | | | |
| | Yaşıl | 5 | 85.30 | | | |
| | Bənövşəyi | 20 | 20.80 | | | |
| | Qəhvəyi | 45 | 90.03 | | | |
| | Qara | 4 | 16.75 | | | |
| | Cəmi | 151 | | | | |

Cədvəl 3.-dən göründüyü kimi Lüşer testinə görə şagirdlərin müəllimə mənfi münasibətinin nəticələrilə anket sorğu arasında arasında statistik əhəmiyyətli əlaqə vardır ($X^2$=74.010, $p<0,05$).

Beləliklə, məktəbdə təlim keyfiyyətinin yüksəlməsi və şagirdlərin kamil şəxsiyyət kimi formalaşması şagird kollektivində pozitiv emosional münasibətlərin formalaşmasından, təlim prosesində bu münasibətlərin müəllim tərəfindən ustalıqla fəallaşdırılaraq düzgün yönləndirilməsindən əhəmiyyətli dərəcədə asılıdır.

Tədqiqatda sinifdə şagirdlərarası emosional münasibətlər qurulan zamanı üstünlük verdikləri emosional xüsusiyyətlər araşdırılmışdır. Bunun üçün C.Marenonun qrupda səxsiyyətlərarası münasibətləri müəyyən etmək üçün sosiometriya metodundan istifadə olunmuşdur. İlk olaraq 115 və 244 saylı məktəblərin VI, VII siniflərində sosiometriya metodu tətbiq edilmişdir. Tədqiqatın nəticələrinə görə sinifdə əlaçı, ünsiyyətcil, səmimi, mehriban, qayğıkeş, əməkdaşlıq, yardım etməyi bacaran, şagirdlər sinif yoldaşlarının simpatiyasını, kobud, yalançı, ünsiyyət qurmağı bacarmayan, pis oxuyan, özünə və başqalarına hörmət etməyən şagirdlər isə həmyaşıdlarının antipatiyasını qazanmışdır.

Beləliklə, yeniyetmələr kollektivində həmyaşıdlar müxtəlif statusa malikdirlər. Müəllim yeniyetmələr kollektivində rahat vəziyyət yaratmalıdır ki, aşağı sosiometrik statuslu şagirdlərin sinif yoldaşlarıla münasibətləri qaydaya salınsın. Müəllim onlara bir qədər azadlıq və müstəqillik verməklə yeniyetmələr kollektivində rahat vəziyyət yaratmalıdır. Həmçinin kollektivdə dəyər və ənənələr yaradılmalıdır. Məsələn, hər rübün sonunda yeniyetmələr istənilən məsələ ilə əlaqədar qeydlər yazıb, onları narahat edən problemləri danışa bilərlər. Qəbul edilməyən, nəzərə çarpmayan, laqeydlik göstərilən yeniyetmələrə sinifdə tapşırıq verməklə kollektiv işə cəlb etməli, onları tərifləyib həvəsləndirmək lazımdır ki, özlərini göstərə bilsinlər.

Şagirdlərin sosiometrik qarşılıqlı seçmə əmsalı müəyyənləşdirdikdən sonra isə onların təlim qiymətlərinin ortalaması ilə asılılığını araşdırılmışdır. Şagirdlərin qarşılıqlı qiymətləndirmə əmsalı ilə təlim qitmətlərinin ortalaması arasında korellyasiya asılılığı cədvəl 4.-də verilmişdir.

**Şagirdlərin qarşılıqlı qiymətləndirmə əmsalı ilə təlim qitmətlərinin ortalaması arasında korrelyasiya göstəriciləri**

**Cədvəl 4.**

| | X | Təlim qiymətlərinin ortalaması | Əhəmiyyətlilik (2-tərəfli) |
|---|---|---|---|
| Qarşılıqlı qiymətləndirmə əmsalı | 10 | 606* | ,043 |

Qeyd: *0,05 səviyyəsində əhəmiyyətlidir.

Cədvəldən göründüyü kimi siniflərdə şagirdlərin qarşılıqlı qiymətləndirmə əmsalı onların təlim qitmətlərinin ortalaması arasında müsbət korrelyativ əlaqə vardır (0,606, p<0,05 səviyyəsində). Alınmış nəticələrə əsaslanaraq deyə bilərik ki, sinif kollektivində şəxsi keyfiyyət və xüsusiyyətlər, xarakter, davranış, rəftar, təlimdə müvəffəqiyyət və ya müvəffəqiyyətsizlik emosional münasibətlərə təsir göstərir.

Şəxsiyyətlərarası emosional münasibətlər qurularkən emosional komponentlər bu sxemin alt komponentləri kimi çıxış edir. Başqa sözlə desək, emosional münasibətlər emosional komponentlər sayəsində qurulur. Məsələn, dostluq kimi emosional münasibətin qurulması üçün lazım olan komponentlərdən biri simpatiyadır. Bu baxımdan bəzi emosional komponentlərin siniflər üzrə statistikası araşdırılmışdır. Emosional komponentlər bir neçə məzmun xüsusiyyətlərinin məcmusundan ibarətdir. Şagirdlərin fikrincə simpatiyanın ən yüksək faiz göstəricisinə malik məzmun xüsusiyyəti gözəllik, ən aşağı faiz göstəricisinə malik məzmun xüsusiyyəti isə şəndir. Antipatiya kimi emosional komponentin ən yüksək faiz göstəricisinə malik məzmun xüsusiyyəti yalançılıq, ən aşağı faiz göstəricisi pislik edən, zövqsüz və özünübəyənən göstərilir. Qeyd edək ki, bütün məzmun xüsusiyyətləri şəxsin sosial baxışından, cari vəziyyətdə yaşam tərzindən, içərisində olduğu emosional halətdən, yaşadığı emosional münasibətdən asılıdır.

Emosional komponentləri təhlil edərkən diqqəti çəkən məqamlardan biridə şagirdlərin bəzi komponentlər haqqında malik olduqları natamam, düzgün formalaşmamış fikirlərdir. Bu məqam VI

sinifdə üstünlük təşkil edir. Məsələn, düşmənçilik komponentini şərh edərkən VI sinif üzrə ən çox qeyd olunan söz tərbiyəsiz ifadəsidir. İstər oğlan, istərsədə qızların yarıdan çoxu təqibən altmış faizi düşmənçiliyi tərbiyəsiz kimi qəbul edir. Daha sonra oğlanlarda bu komponent yalançı, qızlarda isə lovğa termini ilə eyni hüquqlu qeyd edilir. Qeyd edək ki, bu komponenti xəyanətkar, satqın, xain kimi qeyd edən şagirdlər olsada bu göstərici bütün şagirdlərin on faizindən azdır. Emosional münasibətlər qurularkən sağlam emosional mühitin olması labüd şərtlərdən biridir. Sağlam emosional mühit nəinki düzgün münasibətin formalaşmasına kömək edir, eləcədə münasibət bitdikdən sonrada şəxsiyyətin emosional durumu üçün həlledici mahiyyətini qoruyub saxlayır. Istənilən münasibətin dinamikasını izləyərkən onun qalxma və enmə nəticəsinə fikir verilir. Bu baxımdan şagirdlərə "Mən dərsdə olmayanda dostlarım?" sualını cavablandırmaq tapşırığı verilmişdir.Şagirdlər sualı cavablandırarkən sırf emosional baxımdan yanaşma nümayiş etdiriblər. Şagirdlərin 58%-i bu ifadəni dostlarım "darıxırlar", 25%-i "məni axtarırlar", 12%-i "ağlayırlar", 5%-i isə "məni unudurlar" kimi cavabını vermişdilər. Bu yaş mərhələsi üçün dost seçimi olduqca həssas məsələdir. Belə ki, şagirdin psixi, fizioloji, yaş xüsusiyyətləri ilə yanaşı yetkinlik çağının həssas məsələləri şagirdlərdə özünütəsdiq probleminə də bir qədər təzadlı təsir göstərir. Özünütəsdiq amili bu yaş mərhələsi üçün olduqca vacib göstəricidir. Ona görə şagirdlərin boyuk əksəriyyəti bu dövrdə qurduqları dostluq münasibətlərinə böyük etimad və etibar nümayiş etdirirlər. Bu səbəbdən yeniyetmələr hesab edirlər ki, dostları onlarsız keçinməkdə çətinlik çəkir, ən azı onlarsız darıxırlar.

Göründüyü kimi istər müəllim-şagird, istərsədə şagird-şagird arasında qurulan şəxsiyyətarası, eləcədə emosional münasibətlərdə şagirdin istər bu gününü istərsədə sabahına öz təsir gücünü göstərən emosional komponentlər, xüsusiyyətlər formalaşır. Düzgün, sağlam emosional mühitdə formalaşan bu komponentlər istər şagirdin təlim nəticələrinə istərsədə onun şəxsiyyət kimi formalaşmasına öz müsbət təsirini göstərər.

Beləliklə, aparılan tədqiqat zamanı aşağıdakı nəticələr alınıb:

1.Tədqiqat zamanı məlum oldu ki, sinif mühitində emosional

münasibətlər təlimin keyfiyyətinin yüksəlməsinə ciddi təsir göstərir.

2.Müəllimin düzgün seçilmiş emosional sferada şəxsiyyətlərarası münasibətləri gözləməsi şagirdlərin şəxsiyyət kimi formalaşmasına şərait yaradır.

3.Müsbət emosional münasibətlər emosional keyfiyyət xüsusiyyətləri sayəsində formalaşır. Bu əsasda şagirdlərin şəxsi, psixoloji və fizioloji xüsusiyyətləri diqqət mərkəzində saxlanmalıdır.

4.Müsbət emosional keyfiyyət xüsusiyyətləri şagirdlərdə yüksək təlim motivasiyası yaradır. Bu zaman şagirdlər üçün ən vacib emosional münasibətlərdən biri olan dostluq formalaşır. Şagird-şagird münasibətlərinin inkişafı bu baxlmdan çox vacibdir. Beləki, dərs mühitində dostluq qarşılıqlı əməkdaşlıq üçün zəmin yaradır.

5.Müəllimin tədris etdiyi fənni sevdirməsi onun dərsdə sərgilədiyi müəllim-şagird münasibətindən asılıdır. Bir çox hallarda şagirdlər müəllimin məhz şəxsiyyətinə hörmət olaraq onun fənnində yüksək nailiyyətlər əldə edirlər. Müəllimin şəxsi keyfiyyətləri, şagirdlə ünsiyyət qurmaq bacarığı, şagirdlərə fərdi yanaşması şagirddə fənnə qarşı maraq yaradır.

6.Mehriban, gülərüzlülük, səmimilik, düzgün dinləmək bacarığı kimi göstəriciləri şagirdlər ən yaxşı müəllim keyfiyyəti kimi qiymətləndirirlər. Göründüyü kimi istənilən emosional vəziyyət dərsə münasibəti kökündən dəyişir.

7.Şagirdlər müəllimin məhz şəxsiyyət keyfiyyətlərindən sonra pedaqoji peşəkarlığınıda şəxsiyyətlərarası münasibətlərin formalaşmasındakı təsirini də əsas faktorlardan hesab edirlər. Bu zaman şagirdlərin akademik nailiyyətlərinin düzgün qiymətləndirilməsi diqqəti cəlb edən məsələlərdəndir. Düzgün aparılan qiymətləndirmə daha dəqiq desək, rəğbətləndirmə və ya cəzalandırma istər müəllim-şagird, istərsədə şagird-şagird münasibtlərinə birbaşa katalizator rolunu oynayır.

8.Rəsm, Texnologiya, Musiqi kimi ikinci dərəcəli sayılan fənləri tədris edən müəllimlərin fəaliyyəti zamanı daha çox neqativ davranış və emosional xüsusiyyətlərə rast gəlinir. Şagirdlər müəllimin hirsli, kobud, əsəbi, qışqırması halları qeyd edərək, bu fənnə maraq göstərmədiklərini bildirirlər. Bəzən bu fənni tədris edən müəllimin məhz həmin fənn mütəxəssisi olmaması ilə əlaqədardır.

Yaddan çıxarmaq olmaz ki, öz fənnini ikinci dərəcəli fənn kimi qiymətləndirən müəllim şagird üçün praktik həyatda vacib olan qabiliyyət və vərdişləri formalaşdırmalıdır.

9.Tədqiqat zamanı məlum oldu ki, bəzən müəllim fənnə maraq yarada bilmir. Şagirdlə emosional münasibətləri çox gərgin saxlayır. Lakin yaş ilə bağlı psixi proseslərdəki dəyişiklik xüsusi ilə yeniyetməlik dövründəşagirddə xüsusi qabiliyyət tələb edən bu fənlərə maraq yaradır.

10.Yeniyetmələrdə təlim fəaliyyəti ilə bağlı şagirdlərin əsas emosional hislərində müəyyən dəyişikliklər başlayır. Öz fantazisiyasına, yaratdığı təxəyyül obrazlarına maraq, nəsə yeni yaratmaq həvəsi şagirddə özünütəsdiq, özünü qiymətləndirmə kimi keyfiyyətləri formalaşdırır.

11.Təlim fəaliyyəti ilə bağlı bu cür dəyişikliklər şagirdlərin (yeniyetmələrin) əsas emosional hisslərinin müəyyənləşməsinə və formalaşmasında əks olunur. Ən azı şagirddin keçirtdiyi hislər ya özü tərəfindən gizlədilir ya da o, sinifdəki şagirdlərlə, müəllimə ilə, dostları ilə ünsiyyətdə olarkən belə "danışmır". Keçirtdiyi emosional hisləri daxilində saxlayır, dilinə gətirə bilmir. Bu da bəzən yeniyetmələrdə özünə qapanma ilə nəticələnir.

12.İbtidai sinifdə şagirdlər müəllimi təlqin edir, bu da onların emosional sferasında sabitlik dövrü kimi qiymətləndirilir. V sinifdən başlayaraq isə müxtəlif müəllimlər, onların şagirddə yaratdıqları emosional təəssüratlar şagirdin emosional münasibətlərində bir çalxalanma yaradır. Və bu emosional həssaslığın ən yüksək mərhələlərindən birinə çevrilir. Ona görə şagirdlərin sərgilədikləri emosional münasibətləri, hisləri tez-tez dəyişir. Bir müddətdən sonra mühitə alışma bu münasibətlərdə bir sabitlik dövrünü yaradır.

13.Yeniyetməlik yaşı zamanı emosional münasibətlər ikinci inkişaf dövrünü yaşayır. Bu dövrdə müəllim müsbət emosional keyfiyyətləri sərgiləmək və şagirdlərdə onları inkişaf elətdirməklə istər təlim keyfiyyətinə, istərsə də şagird şəxsiyyətinin inkişafına nəzərə çarpacaq dərəcədə müsbət təsir göstərir.

Dissertasiya işinin əsas elmi müddəaları dərc olunmuş aşağıdakı elmi məqalələrdə öz əksini tapmışdır:

1. Sosial psixologiyada münasibət problemi // - Bakı: Bakı Dövlət Universiteti, Psixologiya jurnalı,- 2013. №3, - s.61-69
2. Dostluq anlayışı psixoloji fenomen kimi //- Bakı: Azərbaycan Milli Elmlər Akademiyası, Fəlsəfə və Hüquq İnstitutunun Elmi əsərləri, - 2014. № 1 (22), - s.93-99.
3. Sosial psixologiyada emosional münasibətlər problemi // - Bakı: Xarici Dillər Universiteti, Elmi Xəbərlər, - 2014. № 1, - s.414-419
4. Эмоциональные взаимоотношения школьников младшего подросткового возраста // - Тольятти: Тольяттинского Государственного Университета, Вектор Науки, Серия: Педагогика, психология, - 2014. № 4 (19), - с.152-154.
5. Münasibətdə emosiya. // National cultures in social space and time. Materiale of the İİ international scientific conference, - Bakı: -10-11 mart, - 2014. - s.42-45
6. İnteraktiv təlimin sosial-psixoloji aspektləri // - Bakı: Azərbaycan Milli Elmlər Akademiyası, Fəlsəfə və Hüquq İnstitutunun Elmi əsərləri, - 2015. №1(24), - s. 125-129
7. Роль чувств в жизни человека // Молодь Украiни в контекстi межкультурноi комуникацii. Матерiали І Мiжнародноi науково-практичноi конференциii, - Днiпропетровсь, -2 апреля, - 2015.- с.204-206
8. Emosional münasibətlərin təlim fəaliyyətinə təsirinin psixoloji xüsusiyyətləri // - Bakı: Bakı Dövlət Universiteti, Psixologiya jurnalı, - 2017. № 4, - s.59-67
9. Müəllim-şagird emosional münasibətlərinin bəzi məqamları // Doktorantların və gənc tədqiqatçıların XXII Respublika elmi konfransının materialları II cild.- Bakı: - 20-23 noyabr, - 2018. - s. 450-452
10. Şagird kollektivində emosional münasibətlərin tədqiqinə dair// - Bakı: Azərbaycan Milli Elmlər Akademiyası, Fəlsəfə İnstitutunun Elmi əsərləri, - 2018.№2(31), - s. 162-167

Dissertasiyanın müdafiəsi 14 yanvar 2022-ci il tarixində saat $14^{00}$-da Bakı Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.43 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ - 1148, Bakı şəhəri, Yasamal rayonu, Z. Xəlilov küç., 23, Əsas bina, kitabxana.

Dissertasiya ilə Bakı Dövlət Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Bakı Dövlət Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 10 dekabr 2021-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 09.12.2021

Kağız formatı: 60x84 1/16

Həcm: 38 883 işarə

Tiraj: 100